**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikası
Milli Bankı İdarə Heyətinin
_03_ noyabr 2006-cı il tarixli qərarı ilə
Protokol № _____34________
D/reyestr № _____160_______

# QEYRİ-QANUNİ YOLLA ƏLDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN VƏ YA DİGƏR ƏMLAKIN BANKLAR VASİTƏSİLƏ LEQALLAŞDIRILMASININ QARŞISININ ALINMASINA DAIR

## METODOLOJİ RƏHBƏRLİK

**B a k ı - 2 0 0 6**

## 1. Ümumi müddəalar

Bu Metodoloji Rəhbərlik “Azərbaycan Respublikasının Milli Bankı haqqında”, “Banklar haqqında” Azərbaycan Respublikası Qanunlarının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların tələblərinə, Maliyyə Tədbirləri Üzrə İşçi Qrupu – FATF-ın tövsiyələrinə, Bank Nəzarəti üzrə Bazel Komitəsinin prinsiplərinə əsasən hazırlanmışdır.

Bu Metodoloji Rəhbərlik Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya banklarında, onların filiallarında, şöbələrində, xarici bankların yerli filiallarında (bundan sonra-banklarda) qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı fəaliyyətin hüquqi mexanizmi üzrə (bu hüquqi mexanizm bankların terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyətinə də aiddir) tövsiyələri əhatə edir.

Bu Metodoloji Rəhbərlikdə müəyyənləşdirilmiş tövsiyələr qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı minimum fəaliyyəti ehtiva edir və banklar daxili nəzarət sistemi çərçivəsində əlavə tədbirlərin həyata keçirilməsini təmin edə bilərlər.

## 2. Anlayışlar

Bu Metodoloji Rəhbərlikdə istifadə olunan anlayışlar aşağıdakı mənaları daşıyır:

*qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitləri və ya digər əmlak* – Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayətlərin törədilməsi nəticəsində birbaşa və ya dolayı şəkildə əldə olunmuş hər hansı pul vəsaitləri, daşınar və ya daşınmaz əmlak, maddi və ya qeyri-maddi əmlak və mülkiyyət hüquqlarını təsdiq edən hüquqi sənədlər;

*qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması* – cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, yəni cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərinə və ya digər əmlaka qanuni status vermək, onların əldə edilməsinin həqiqi mənbəyini

gizlətmək məqsədilə belə pul vəsaitləri və ya əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarını və ya digər əqdləri həyata keçirmə;

*pul vəsaitləri və ya digər əmlakla əməliyyat* – pul vəsaitləri və ya digər əmlakla aparılmış əməliyyatlar nəticəsində onların mülkiyyət hüquqlarının əldə edilməsi, istifadəsi və ya dəyişdirilməsi;

*daxili nəzarət sistemi* – banklar tərəfindən hazırlanması və həyata keçirilməsi tövsiyə olunan kompleks daxili nəzarət tədbirləri. Bu tədbirlər dəqiq eyniləşdirmə, sənədləşdirmə, məxfiliyin təmin edilməsi, treyninq proqramları, xüsusi diqqət yetirilməli əməliyyatların aşkarlanması meyarları, daxili audit mexanizmləri, məsul şəxsin təyin edilməsi, həmçinin digər mexanizm və qaydaları əhatə edir;

*siyasi əhəmiyyət kəsb edən şəxs* – hər hansı xarici dövlətdə mühüm ictimai vəzifə tutan və ya əvvəllər belə vəzifəni tutmuş şəxslər, (dövlət xadimləri, hökumət üzvləri, yüksək məhkəmə və hərbi rəsmiləri, dövlət mülkiyyətində olan müəssisələrin rəhbər vəzifəli şəxsləri, siyasi partiya rəsmiləri), onların yaxın qohumları (ər-arvad, valideynlər, ər-arvadın valideynləri, baba, nənə, övlad, övladlığa götürülən, qardaş və bacı), onların adlarından çıxış edən şəxslər;

*müştəri* – banklarla pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatla nəticələnə bilən hər hansı xidmətdən istifadə edən şəxs;

*benefisiar* – pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatlar nəticəsində iqtisadi və yaxud hər hansı digər fayda əldə edən sonuncu fiziki və ya hüquqi şəxs.

## 3. Bankların qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı fəaliyyət üzrə daxili nəzarət sistemi

3.1. Bankların qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı daxili nəzarət sistemi ən azı aşağıdakılardan ibarət olmalıdır:

3.1.1. müştərilərin, xeyrinə əməliyyat həyata keçirilən şəxslərin, üçüncü şəxsin adından çıxış edən şəxslərin, benefisiarların, əməliyyatların eyniləşdirilməsinə imkan verən daxili mərkəzləşdirilmiş arxivin yaradılması;

3.1.2. məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsinə dair qaydaların qəbul olunması;

3.1.3. əməkdaşların qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı fəaliyyət üzrə daimi əsaslarda təlimi;

3.1.4. xüsusi diqqət yetirilməli əməliyyatların aşkarlanması meyarları;

3.1.5. əməliyyatın həyata keçirilməsindən imtina olunduğu halda, meydana çıxa biləcək problemlərin həlli istiqamətində tədbirlər;

3.1.6. bu Metodoloji Rəhbərlikdə tövsiyə olunan mexanizmlərin tətbiq olunmasının effektliliyini yoxlayan daxili audit mexanizmi;

3.1.7. rəhbərlik, habelə struktur bölmələrinin rəhbərliyi səviyyəsində qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı fəaliyyət üzrə daxili qayda və prosedurların həyata keçirilməsinə nəzarət etməyə, əməliyyatların, müştərilərin və benefisiarların davamlı monitorinqini aparmağa məsul şəxsin və ya qrupun təyin edilməsi;

3.1.8. məsul şəxsin və ya qrupun bankın bütün əməliyyatları ilə əlaqədar istənilən məlumata çıxış səlahiyyətlərinə malik olması;

3.1.9. fəaliyyət xüsusiyyətindən asılı olaraq, siyasi əhəmiyyət kəsb edən şəxslərə münasibətdə xüsusi eyniləşdirmə tədbirləri, davamlı işə qəbul etmə və işçilərin yoxlanması mexanizmləri də daxil olmaqla, sağlam xarakteri şübhə doğuran hər hansı əməliyyatın aşkarlanması, qarşısının alınması üzrə digər mexanizm və qaydaların qəbul olunması.

3.2. Bu Metodoloji Rəhbərliyin 3.1.7-ci bəndində qeyd olunmuş məsul şəxsin və ya qrupun birbaşa yüksək rəhbərliyə (İdarə Heyəti, Direktor və s.) hesabat verməsi tövsiyə olunur.

## 4. Müştərilərin və benefisiarların risk kateqoriyaları üzrə eyniləşdirilməsi

4.1. Banklar qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı fəaliyyət üzrə əhəmiyyətlilik baxımından öz müştərilərinin risk kateqoriyalarını müəyyənləşdirməlidir. Müştərilərin risk kateqoriyalarına bölünməsi ən azı aşağıdakı meyarlara əsaslana bilər:

4.1.1. yüksək riskli müştərilər – siyahısı Azərbaycan Respublikası Milli Bankı (bundan sonra Milli Bank) tərəfindən müəyyənləşdirilən dövlətlərdə və ya ərazilərdə qeydiyyatdan keçmiş şəxs, siyasi əhəmiyyət kəsb edən şəxs, bu Metodoloji Rəhbərliyin 6-cı və 7-ci bəndlərində qeyd olunan meyarlara cavab verən əməliyyatın icra edilməsinə dair sifariş verən şəxs, əvvəllər təqdim etdiyi eyniləşdirmə məlumatlarının doğru olmadığı aşkarlanan şəxs, öz adından fəaliyyət göstərməsi və ya üçüncü şəxsin adından çıxış etməsi şübhə doğuran şəxs, həyata keçirdiyi əməliyyatın qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakn leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə hər hansı şəkildə əlaqəli olması şübhə doğuran şəxs;

4.1.2. orta riskli müştərilər - əsas əməliyyatlarını nağd vəsaitlərlə həyata keçirən hüquqi şəxslər; beynəlxalq pul köçürmə sistemləri vasitəsilə şərti maliyyə vahidinin on beş min mislindən (bundan sonra "limitdən") artıq məbləğdə bank xidmətindən istifadə edən şəxs; mütəmadi təkrarlanan qaydada ümumi məbləği şərti maliyyə vahidinin on beş min mislindən aşağı məbləğdə əməliyyatları həyata keçirən şəxs; üçüncü şəxsin adından çıxış edən hüquqşünas, mühasib və brokerlər;

4.1.3. aşağı riskli müştərilər – banklar, dövlət və bələdiyyə orqanları, yerli və xarici bazarda ciddi etibar qazanmış şəxslər, yüksək və orta riskli müştərilər kateqoriyasına daxil olmayan digər şəxslər.

4.2. Banklar aşağı riskli müştərisini və benefisiarı aşağıdakı qaydada dəqiq eyniləşdirə bilər:

4.2.1. hüquqi şəxsin eyniləşdirilməsi onun nizamnaməsinin və dövlət qeydiyyatı haqqında sənədin notariat qaydasında təsdiq olunmuş surətləri əsasında aparılır (həmin sənədlər bankda qalmalıdır);

4.2.2. fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd əsasında aparılır (şəxsiyyəti təsdiq edən sənədin surəti bankda qalmalıdır);

4.2.3. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd və vergi orqanı tərəfindən verilmiş şəhadətnamə əsasında aparılır. Şəxsiyyəti təsdiq edən sənədin surəti və müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamənin əsli bankda qalmalıdır.

4.2.4. üçüncü şəxsin adından çıxış edən səlahiyyətli şəxslər onların fiziki və ya hüquqi şəxs olmasından asılı olaraq bu Metodoloji Rəhbərliyin 4.2.1, 4.2.2 və 4.2.3-cü bəndlərində sadalanan sənədləri, eləcə də xeyrinə əməliyyat aparılan şəxsin eyniləşdirilməsini mümkün edən məlumatları (dövlət və bələdiyyə orqanları üçün – onların adları və yerləşdiyi ünvan, fiziki şəxslər üçün –adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin məlumatları, hüquqi şəxslər üçün isə –onların adları və dövlət qeydiyyatı haqqında sənədin məlumatları) təqdim etməlidir.

4.3. Banklar orta riskli müştərilərin eyniləşdirilməsi zamanı bu Metodoloji Rəhbərliyin 4.2-ci bəndində müəyyənləşdirilən sənədlərdə göstərilən məlumatlardan əlavə müştərinin işgüzar münasibət yaratmaqda məqsədini, işgüzar münasibətin təbiətini, pul vəsaitinin və ya digər əmlakın mənbəyini aydınlaşdırmaq üçün aşağıdakı məlumatları özündə əks etdirən əlavə sənədləri tələb edə bilər:

4.3.1. müştərinin iş yeri, əmək haqqı və ya gəliri;

4.3.2. digər banklarda olan hesabları;

4.3.3. digər banklardan aldığı kreditlər və onların mövcud vəziyyəti;

4.3.4. hüquqi şəxslərin kapitalında iştirak payı;

4.3.5. girov hüquqları və əmlakının girovla yüklülüyü;

4.3.6. Azərbaycan Respublikasından kənarda qeydiyyatdan keçmiş banklardakı hesablar;

4.3.7. fəaliyyəti lisenziyalaşdırılan müştərinin lisenziyası;

4.3.8. hüquqi şəxs olan müştərinin kapitalında mühüm iştirak payına malik olan şəxslər, habelə hüquqi şəxsin rəhbərliyi barədə məlumat.

4.4. Banklar yüksək riskli müştərinin eyniləşdirilməsi üçün bu Metodoloji Rəhbərliyin 4.2-ci və 4.3-cü bəndlərində qeyd olunan məlumatlardan əlavə digər etibarlı mənbələr vasitəsilə müştəri, benefisiar və həyata keçirilən əməliyyat, əgər mümkündürsə, pul vəsaitlərinin və ya digər əmlakın mənbəyi barədə daha dəqiq məlumatları əldə etməyə və üzləşdirməyə çalışmalıdır. Yüksək riskli müştərilərlə işgüzar münasibətlərin yaradılması haqqında qərarın birbaşa bankın yüksək rəhbərliyi (İdarə Heyəti, Direktor və s) tərəfindən verilməsi tövsiyə olunur.

4.5. Banklar aşağı riskli müştərilər üzrə eyniləşdirmə məlumatlarının ən azı üç ildə bir dəfə, orta riskli müştərilər üzrə ildə bir dəfə, yüksək riskli müştərilər üzrə altı ayda bir dəfə yeniləşdirilməsinə çalışmalıdırlar.

4.6. Əməliyyatın ümumi məbləği əməliyyatın icra olunmasından əvvəl məlum deyilsə, müştərinin və benefisiarın risk kateqoriyaları üzrə eyniləşdirilməsi əməliyyatın məbləğinin limitdən artıq olduğu müəyyənləşdiyi anda həyata keçirilə bilər.

4.7. Əgər əməliyyatın tərəflərini dəqiq eyniləşdirmək mümkün deyilsə və ya müştəri eyniləşdirmə məlumatlarını təqdim etməkdən imtina edirsə, banklar "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 42-ci maddəsinə əsasən müvafiq əməliyyatı həyata keçirməməlidirlər.

4.8. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 969-cu maddəsinə əsasən bank hesabı müqaviləsinə müqavilənin bank tərəfindən birtərəfli məhkəməyə müraciət etmədən ləğvinə əsas yaradan hallardan biri kimi müştərinin, benefisiarın və ya həyata keçirilən əməliyyatın qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın leqallaşdırılması ilə hər hansı şəkildə əlaqəli olduğuna dair əsaslı şübhələrin mövcudluğu daxil edilməlidir.

## 5. Qeyri-rezidentlər üçün müxbir hesabların açılması

5.1. Azərbaycan Respublikasından kənarda qeydiyyatdan keçmiş qeyri-rezident bankların rezident banklarda müxbir hesab açmasına və müvafiq hesabdan əməliyyatlar aparmasına bankların daxili nəzarət sistemləri vasitəsilə xüsusi nəzarət təmin edilməlidir.

5.2. Banklar müxbir hesab açmaq istəyən qeyri-rezident bankın fəaliyyətini aydınlaşdırmaq məqsədilə hesabın açılması üçün məcburi tələb olunan sənədlərdən başqa əlavə olaraq qeyri-rezident bankdan aşağıdakı məlumatları əks etdirən sənədləri əldə edə bilər:

5.2.1. bankın rəhbərliyi haqqında məlumat;

5.2.2. bankın hüquqi ünvanı;

5.2.3. əsas fəaliyyət istiqamətləri haqqında məlumat;

5.2.4. qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı daxili prosedurlar haqqında məlumat;

5.2.5. hesabın məqsədi və istisna hallarda hesabdan istifadə edəcək üçüncü şəxslər haqqında məlumat;

5.2.6. hesabın təbiəti və həyata keçiriləcək əməliyyatların təxmini məbləğləri haqqında məlumat.

## 6. Xüsusi diqqət yetirilməli əməliyyatlar

6.1. Ümumi məbləği limitdən artıq olan və aşağıdakı əlamətləri daxil edən pul vəsaitləri və ya digər əmlakla əməliyyatlara xüsusi diqqət yetirilməlidir:

6.1.1. hesaba vəsaitin daxil edilməsi və həmin əməliyyat günü və ya növbəti əməliyyat günü ərzində çıxarılması və ya digər hesaba köçürülməsi;

6.1.2. müştəri tərəfindən onun sahibkarlıq fəaliyyətinə və maddi durumuna qeyri-mütənasib sayda hesabların açılması, bu hesablar arasında və ya digər hesablara köçürmələrin həyata keçirilməsi;

6.1.3. müştərinin sahibkarlıq fəaliyyətinə və ya maddi durumuna qeyri-mütənasib əməliyyatlar;

6.1.4. müştərinin adi əməliyyatlarının xarakterindən xüsusilə fərqli bir və ya bir neçə günlük əməliyyatlar;

6.1.5. üçüncü şəxsin xeyrinə əmanət hesabının açılması və həmin hesaba nağd vəsaitlərin daxil edilməsi;

6.1.6. fiziki şəxsin hesabına hüquqi şəxs tərəfindən və ya əksinə pul vəsaitlərinin köçürülməsi;

6.1.7. dövlət qeydiyyatından keçdiyi gündən 3 (üç) ay ərzində, habelə bank hesabından 6 (altı) ay ərzində əməliyyatlar aparılmayan hüquqi şəxsin hesabına pul vəsaitlərinin daxil edilməsi və hesabından pul vəsaitlərinin çıxarılması;

6.1.8. qeyri-hökumət təşkilatının və ya dini təşkilatın hesablarından hər hansı əməliyyat;

6.1.9. təsərrüfat fəaliyyətinin xarakteri şübhə doğuran sahibkar fiziki və ya hüquqi şəxsin hesabına nağd pul vəsaitinin mədaxil edilməsi və / və ya hesabından nağd pul vəsaitinin çıxarılması;

6.1.10. nağd xarici valyutanın alınması və ya satılması;

6.1.11. fiziki şəxs tərəfindən hər hansı hüquqi şəxsin nizamnamə kapitalına nağd şəkildə pay qoyuluşu;

6.1.12. rəsmiləşdirilmiş kreditin Azərbaycan Respublikasından kənarda yerləşən bankdakı vəsaitlərlə təmin edilməsi;

6.1.13. sahibkarlıq fəaliyyəti məqsədilə açılmış hesabdan cüzi və ya bir dəfəlik əməliyyatın həyata keçirilməsi, habelə hesabın yalnız xaricə pul köçürmək məqsədilə istifadə olunması;

6.1.14. korporativ müştəri tərəfindən tez-tez təkrarlanan qaydada hesaba böyük məbləğdə vəsaitlərin daxil edilməsi və yüksək balansın saxlanması, lakin digər bank xidmətlərinə marağın göstərilməməsi;

6.1.15. əcnəbi müştərinin hesabına əsaslı səbəb olmadan pul vəsaitinin daxil olması;

6.1.16. qanuni saziş, mal dövriyyəsi və ya xidmətlərlə aydın bağlılığı olmayan ödənişlərin həyata keçirilməsi;

6.1.17. qüvvədə olan qanunvericiliyə əsasən avans ödənişinin həyata keçirilməsindən sonra müqavilə üzrə malın ölkə ərazisinə gətirilməməsi və vəsaitin geri qaytarılmaması;

6.1.18. müqavilənin yerinə yetirilməməsi və ya qüvvədən düşməsi müqabilində qeyri-rezidentə köçürülmüş avans ödənişinin geri qaytarılması;

6.1.19. rezident və qeyri-rezident arasında bağlanmış müqavilənin yerinə yetirilməməsinə görə cərimə və bu növdən olan digər haqların ödənilməsi;

6.1.20. gömrük bəyannaməsi əsasında Azərbaycan Respublikasının ərazisinə gətirilən valyuta sərvətlərinin xarici bank hesablarına köçürülməsi;

6.1.21. müxbir hesablar üzrə əməliyyatların həcm və xarakterinin kəskin dəyişməsi;

6.1.22. peşəkar xidmətlərin təminatı ilə məşğul olan müstəqil hüquqşünas, mühasib və ya brokerlər tərəfindən müştəri hesablarına nağd vəsaitlərin daxil edilməsi və çıxarılması;

6.1.23. kredit kartı hesabına Azərbaycan Respublikasının ərazisindən kənarda vəsaitlərin daxil edilməsi və Azərbaycan Respublikasında yerləşən bankomatlar vasitəsilə nağd çıxarılması;

6.1.24. daimi yaşayış yeri Azərbaycan Respublikası olmayan və hər hansı sahibkarlıq və ya digər qanuni fəaliyyətlə məşğul olmayan qeyri-rezident müştərinin hesabından həyata keçirilən əməliyyatlar;

6.1.25. müvafiq hesaba malik pərakəndə biznes əməliyyatlarının oxşar müştərilərin əməliyyatlarından kəskin fərqlənməsi, habelə nağd vəsaitlər hesaba daxil edilməsinə baxmayaraq, gündəlik əməliyyatlar üçün vəsaitlərin istifadə edilməməsi;

6.1.26. adsız qiymətli kağızlar vasitəsilə hər hansı əməliyyat.

## 7. Məbləğindən asılı olmayaraq xüsusi diqqət yetirilməli əməliyyatlar

7.1. Pul vəsaitləri və ya digər əmlakla əməliyyatlar məbləğindən asılı olmayaraq aşağıdakı əlamətləri daxil etdikdə, onlara xüsusi diqqət yetirilməlidir:

7.1.1. narkotik maddələrin qeyri-qanuni istehsalında, terrorçuluğun maliyyələşdirilməsində, qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında iştirakı ehtimal olunan dövlətin (ərazinin) və ya maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətin (ərazinin) vətəndaşı ilə, həmin dövlətdə (ərazidə) müvafiq qeydiyyata malik şəxslə, yerləşmə məkanı və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslə, eləcə də göstərilən dövlətlərdə (ərazidə) qeydiyyatdan keçmiş bankda hesaba malik şəxslə əlaqədar hər hansı pul vəsaitləri və ya digər əmlakla əməliyyat;

7.1.2. siyasi əhəmiyyət kəsb edən şəxslərin bank hesablarından həyata keçirilən hər hansı əməliyyat;

7.1.3. müştərinin limitdən aşağı məbləğdə mütəmadi olaraq və çox sayda təkrarlanan əməliyyatları;

7.1.4. Azərbaycan Respublikasının yurisdiksiyasından kənardakı anonim hesabdan pul vəsaitlərinin daxil olması və ya Azərbaycan Respublikasının yurisdiksiyasından kənara anonim hesaba pul vəsaitlərinin köçürülməsinə təşəbbüs;

7.1.5. müştərinin bank əməkdaşına məlumatları təqdim etməmək üçün təzyiq göstərməsi;

7.1.6. yeni hesab açan sahibkar hüquqi şəxsin öz biznesinin məqsədi, əvvəlki bank əlaqələri, öz direktor və əməkdaşlarının adları, biznesin həyata keçirildiyi məkan barədə əlavə məlumat verməkdən imtina etməsi;

7.1.7. hesabın benefisiarının müəyyənləşdirilməsinin mümkünsüzlüyü;

7.1.8. müştərinin bank əməkdaşları ilə öz biznesini həyata keçirdiyi məkanda deyil, fərqli yerdə görüşmək istəyini israrla bildirməsi;

7.1.9. digər bankın müştəriyə xidmət göstərməkdən imtina etməsi haqqında məlumatın mövcudluğu.

## 8. Bankların məsuliyyəti

8.1 Banklar həyata keçirdikləri əməliyyatların sağlam xarakterinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.

8.2 Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının Milli Bankı banklara reytinq verən zaman qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın leqallaşdırılmasına qarşı fəaliyyət üzrə bankdaxili nəzarət sisteminin mövcudluğuna və keyfiyyətinə nəzarət edir, bankın rəhbərliyinin idarəetmə qabiliyyətinin qiymətləndirilməsində daxili nəzarət sistemi çərçivəsində həyata keçirilən işlərə xüsusi diqqət yetirir.

**İdarə Heyətinin Sədri** ______________ **E.S.Rüstəmov**